AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Mənfəət Vergisi

#11

Dövlət naminə

www.taxes.gov.az

**Vergi orqanında mənfəət vergisinin ödəyicisi kimi uçota alınmısınızsa, bilməlisiniz ki...**

- Azərbaycan Respublikasında və respublikadan kənarda əldə olunan gəlir (vergidən azad edilən gəlirdən başqa) ilə gəlirdən çıxılan xərc arasındakı fərqdən 20 faiz dərəcə ilə vergi hesablanmalı;
- Rüb başa çatdıqdan sonrakı ayın 15-dən gec olmayaraq vergi orqanına "Cari vergi ödəmələrinin hesablanması haqqında Arayış" təqdim edilməli və həmin müddətədək vergi ödənilməli;
- Hesablanmış vergi məbləği cari vergi ödəmələri nəzərə alınmaqla hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq "Mənfəət vergisinin bəyannaməsi" ilə bəyan edilməlidir.

# Cari vergi ödəmələri

**İl ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin aşağıdakı iki mümkün metodundan biri seçilməli və hər il aprel ayının 15-dək bu barədə vergi orqanına məlumat verilməlidir:**

1. Hər ödəmənin məbləği əvvəlki vergi ilində hesablanmış vergi məbləğinin **1/4 hissəsini** təşkil etməklə;
2. Bu rübdəki gəlirin həcmi onun keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) **verginin xüsusi çəkisini göstərən əmsala vurulmaqla**.

**İkinci metod seçildikdə** hər rüb başa çatdıqdan sonra 15 gün ərzində hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim edilməlidir. Əks halda, vergi orqanı tərəfindən birinci metod tətbiq olunur. Cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq edilən metod barədə məlumat verilmədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir və həmin metod vergi ilinin sonunadək dəyişdirilmir.
Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən hüquqi şəxslərin, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyicilərinin (bundan sonra - əvvəllər fəaliyyəti olmayan vergi ödəyiciləri) cari vergi ödəmələri aşağıdakı qaydada həyata keçirilir:

- Cari vergi ödəmələri təqvim ili ərzində rüblər üzrə artan yekunla müəyyənləşdirilən müvafiq vergi dərəcələrinə əsasən hesablanmalı;
- Rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələri aparılmalı və rüb ərzində hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim edilməli;
- Cari vergi ödəmələrinin məbləği mənfəətdən verginin məbləğinin 75 faizindən az olmamalıdır.

## Gəlirdən xərclərin çıxılması

- Gəlirdən çıxılmayan xərclərdən başqa, gəlirin əldə edilməsi ilə bağlı olan bütün xərclər, həmçinin qanunvericilikdə nəzərdə tutulmuş icbari ödənişlər gəlirdən çıxılır.
- Gəlirdən çıxılmalı olan amortizasiya ayırmaları hər kateqoriyaya aid olan əsas vəsaitlər üçün müəyyənləşdirilmiş amortizasiya normasını həmin kateqoriyaya aid əsas vəsaitlərin vergi ilinin sonuna balans üzrə qalıq dəyərinə tətbiq etməklə hesablanır.
    - Mikro sahibkarlıq subyektləri sahibkarlıq fəaliyyətində istifadə etdikləri əsas vəsaitləri münasibətdə amortizasiya ayırmalarını 2 əmsal, kiçik sahibkarlıq subyektləri isə sahibkarlıq fəaliyyətində istifadə etdikləri əsas vəsaitlərə münasibətdə amortizasiya ayırmalarını 1,5 əmsal tətbiq etməklə gəlirdən çıxa bilərlər.
- Hər il üçün gəlirdən çıxılmalı olan təmir xərclərinin məbləği əsas vəsaitlərin hər bir kateqoriyasının əvvəlki ilin sonuna qalıq dəyərinin binalar, tikililər və qurğuların ilin sonuna qalıq dəyərinin 2 faizi, yüksək texnologiyalar məhsulu olan hesablama texnikası və nəqliyyat vasitələri 5 faizi, digər əsas vəsaitlər 3 faizi və köhnəlmə hesablanmayan əsas vəsaitlər üzrə sıfır (0) faizi həddi ilə məhdudlaşdırılır.

# Gəlirdən çıxılmayan xərclər

Əsas vəsaitlərin alınmasına və qurulmasına çəkilən xərclər və kapital xarakterli digər xərclər;

Qeyri-kommersiya fəaliyyəti ilə bağlı olan xərclər;

Əyləncə və yemək xərcləri, habelə işçilərin mənzil və digər sosial xarakterli xərcləri;

Öz işçilərinin xeyrinə əmlakın zərərdən sığortalanması, habelə xarici sığorta təşkilatları ilə bağlanmış həyat sığortası müqavilələri üzrə sığorta haqları;

Əmək haqqı kartlarının alınmasına çəkilən xərclər istisna olmaqla, fiziki şəxsin fərdi istehlakla və ya əməkhaqqının alınması ilə bağlı olan xərcləri;

Faktiki ezamiyyə xərclərinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyənləşdirdiyi normadan artıq olan hissəsi;

Ödənilmiş mənfəət vergisi və ya gəlirdən hesablanan hər hansı digər vergilərin, hesablanmış faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələrin də gəlirdən çıxılmasına yol verilmir.

!

NKA-nın çeki və ya qəbz (bank əməliyyatlarını həyata keçirən şəxslər, dövlət hakimiyyəti, yerli özünüidarəetmə orqanları və büdcə təşkilatları və notariuslar tərəfindən verilən qəbz və ya digər ciddi hesabat blankları istisna olmaqla) malların (işlərin, xidmətlərin) alınması ilə bağlı çəkilən xərcləri təstiq edən sənəd hesab olunmur.

# Azadolmalar və güzəştlər

**Aşağıdakılar vergidən azaddır:**

- Xeyriyyə, beynəlxalq, dövlətlərarası və hökumətlərarası təşkilatların gəlirləri-sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirdən başqa;
- Qeyri-kommersiya təşkilatlarının aldıqları əvəzsiz köçürmələr, üzvlük haqları və ianələr;
- Alınmış sığorta ödənişləri (həmin sığorta hadisəsi ilə əlaqədar zərərə aid edilən məbləğlərdən başqa);
- Dividendlərin ödənilməsinə yönəldilən hissəsi istisna olmaqla, təhsil müəssisələrinin mənfəəti;
- Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dövlət büdcəsinə olan vergi borclarının silinməsindən əldə edilən gəlir;
- 1 yanvar 2024-cü il tarixədək kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) hüquqi şəxslərin yalnız bu fəaliyyətdən gəlirləri;
- 1 yanvar 2014-cü il tarixdən başlayaraq 10 il müddətinə körpələr evləri, körpələr evi-uşaq bağçaları, uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evlərinin bu fəaliyyətdən əldə etdikləri gəlirləri;
- "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununa əsasən ödənilən kompensasiya;
- İnvestisiya təşviqi sənədi almış hüquqi şəxsin həmin sənədi aldığı tarixdən 7 il müddətinə əldə etdiyi mənfəətin 50 faizi;
- Paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə dövlətə məxsus olan hüquqi şəxslər və dövlətin adından yaradılan publik hüquqi şəxslər istisna edilməklə, vergi ödəyicisinin hesabat ilinin mənfəətinin 10 faizindən çox olmayan hissəsinin Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilən meyarlara cavab verən təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara köçürülən hissəsi - 2019-cu il 1 yanvar tarixdən 10 il müddətinə (bu müddəalar yalnız nağdsız qaydada ödənilən xərclərə münasibətdə tətbiq edilir);
- Vergi ödəyicisinin azı 3 il ərzində mülkiyyətində olan iştirak payının və ya səhmin təqdim edilməsindən əldə olunan gəlirlərinin 50 faizi;
- Mikro sahibkarlıq subyekti olan hüquqi şəxslərin sahibkarlıq fəaliyyətindən əldə etdikləri mənfəətin 75 faizi;

- KOB klaster şirkətinin mənfəəti-KOB klaster şirkətinin KOB klaster şirkətlərinin reyestrinə daxil edildiyi tarixdən 7 il müddətinə;
- KOB klasterin iştirakçısı olan hüquqi şəxsin KOB klaster şirkəti ilə bağlanmış müqavilə əsasında təqdim etdiyi mal (iş, xidmət) üzrə əldə etdiyi mənfəətin kapital xarakterli xərclərin çəkilməsinə yönəldilən hissəsi - 7 il müddətinə;
- Mikro və ya kiçik sahibkarlıq subyekti olan və hüquqi şəxs kimi innovativ təşəbbüsə əsaslanaraq fəaliyyət göstərən startapların "Startap" şəhadətnaməsi aldığı tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri mənfəəti - 3 il müddətinə;
- Gəlirlərin və xərclərin uçotunu aparan, ƏDV-nin ödəyicisi olmayan və əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatadək olan rezident müəssisənin təsisçisi və yaxud səhmdarları olan hüquqi şəxslərin dividend gəlirləri;
- "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin bu məqsədlə yaratdığı hüquqi şəxsin haqqı ödənilən ictimai işlərin təşkili ilə bağlı fəaliyyətdən əldə etdiyi gəlir.

# Güzəştlər:



**Əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatlarına məxsus olan, işçilərinin ümumi sayının azı 50 faizi əlillərdən və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərdən ibarət olan istehsal müəssisələrinin mənfəət vergisinin dərəcəsi 50 faiz azaldılır.**



**Pərakəndə ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər tərəfindən büdcəyə ödənilməli olan mənfəət vergisinin məbləği 1 yanvar 2019-cu il tarixdən 3 il müddətinə vergi orqanında uçotda olmayan şəxslərin POS-terminal vasitəsilə nağdsız qaydada aparılan ödənişlərin ümumi gəlirdəki xüsusi çəkisinə uyğun müəyyən edilən verginin 25 faizi həcmində azaldılır.**

# Xarici ölkədə ödənilən verginin nəzərə alınması

Rezidentin respublikanın hüdudlarından kənarda Azərbaycan mənbəyindən olmayan gəlirindən ödənilmiş mənfəət vergisinin məbləği Azərbaycanda vergi ödənilərkən nəzərə alınır. Respublikadan kənarda ödənilmiş mənfəət vergisinin məbləği həmin mənfəətdən respublikada müəyyən edilmiş dərəcələrlə tutulan verginin məbləğindən çox olmamalıdır.

# Zərərin keçirilməsi

Müəssisənin gəlirlərdən çıxarılmasma yol verilən xərclərinin gəlirdən artıq olan hissəsi 5 ilədək davam edən sonrakı dövrə keçirilir və illər üzrə məhdudiyyət qoyulmadan həmin illərin mənfəəti hesabına kompensasiya edilir.
Amortizasiya və təmir xərcləri normalarından aşağı norma tətbiq edilməsi nəticəsində yaranan və növbəti illərə keçirilən məbləğlər növbəti ilin gəlirləri hesabına kompensasiya edilmir.

# Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə

Vergi qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı "Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş" adlı bukletdən əldə edə bilərsiniz.

1195

AZ1073, Azərbaycan, Bakı,
Landau küçəsi, 16
**Tel.:** +994 12 403 89 70
**Faks:** +994 12 403 89 71
**E-poçt:** office@taxes.gov.az

**www.taxes.gov.az**